**NAXÇIVAN MUXTAR RESPUBLİKASININ**
**NAZİRLƏR KABİNETİ**

# Q Ə R A R

**Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Aparatının və onun strukturuna daxil olan qurumların işçilərinin say həddinin təsdiq edilməsi və “Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Aparatının, şəhər və rayon idarələrinin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 aprel tarixli 70 nömrəli Qərarında dəyişiklik edilməsi barədə**

Naxçıvan Muxtar Respublikası Ali Məclisi sədrinin 2009-cu il 06 iyul tarixli 169-III FR nömrəli Fərmanı ilə təsdiq edilmiş “Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi haqqında Əsasnamə”nin 11-ci hissəsinə əsasən, Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi ilə razılaşdırılmış təklifini nəzərə alaraq Naxçıvan Muxtar Respublikasının Nazirlər Kabineti **qərara alır:**

1. Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Aparatının işçilərinin say həddi 56 ştat vahidi, şəhər və rayon idarələrinin işçilərinin say həddi 54 ştat vahidi həddində təsdiq edilsin.

2. “Azərbaycan Respublikası Naxçıvan Muxtar Respublikası Dövlət Statistika Komitəsinin Aparatının, şəhər və rayon idarələrinin ştat cədvəllərinin təsdiq edilməsi haqqında” Naxçıvan Muxtar Respublikası Nazirlər Kabinetinin 2023-cü il 25 aprel tarixli 70 nömrəli Qərarının 1-ci və 2-ci hissələri ləğv edilsin.

3. Naxçıvan Muxtar Respublikasının Maliyyə Nazirliyi və Naxçıvan Muxtar Respublikasının Dövlət Statistika Komitəsi bu Qərardan irəli gələn məsələləri həll etsin.

4. Bu Qərar imzalandığı gündən qüvvəyə minir.

**Naxçıvan Muxtar Respublikasının**
**Baş naziri** **Ceyhun Cəlilov**

Naxçıvan şəhəri, “5” mart 2025-ci il

№ 15